**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri cənab Anar Bağırova**

**Surəti: AAA Vəkil Bürosuna**
*Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, 90A*

**Bakı şəhəri, Nərimanov rayonu, Faiq Yusifov küç. 15 ünvanında yaşayan Məhərrəmov Vüqar Abbas oğlu tərəfindən**

# TƏŞƏKKÜRNAMƏ

**Hörmətli Anar müəllim!**

İlk növbədə, "Vəkil günü" peşə bayramı ilə əlaqədar Sizi və həmkarlarınızı təbrik edir, çətin və məşəqqətli fəaliyyətinizdə uğurlar arzu edirəm. Son dövrlərin təcrübəsi onu göstərir ki, ədalət mühakiməsinin həyata keçirilməsində, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində, qanunsuzluq hallarının aradan qaldırılmasında müstəqil vəkillik təsisatı əvəzolunmaz rol oynamaqla, səmərəli və ədalətli məhkəmə araşdırması hüququnun realizəsinə öz töhvəsini verir.

Bu səbəbdən məhz 28 dekabr – "vəkil günü" peşə bayramında Sizə və iddiaçı olduğum məhkəmə işində hüquqlarımın müdafiəsini həyata keçirən və vətəndaşa qarşı yol verilən süründürməçilik, qanunsuzluq hallarının qarşısının alınmasında güclü mübarizə aparan "AAA" Vəkil Bürosunun direktoru vəkil Atakişi Abbas Musa oğluna və vəkil bürosunun kollektivinə dərin təşəkkürümü bildirməyi özümə borc bildim.

Belə ki, mülkiyyətimdə olan yaşayış sahəsinin qanunsuz olaraq sökülməsi və nəticəsində heç bir kompensasiya ödənilməməsi səbəbindən mən və ailə üzvlərim ciddi maddi və mənəvi zərərə məruz qalmışdıq. Mülkiyyət hüququmun müdafiəsi məqsədilə müxtəlif dövlət orqanlarına və məhkəmələrə müraciət etsəm də, müraciətlərim nəticəsiz qalmış, iddia tələbim üzrə işə baxan birinci və apelyasiya instansiyası məhkəmələrində müsbət nəticə əldə edə bilməmiş, iddia tələbinin əsaslılığının məhkəmə tərəfindən tanınmasına nail ola bilməmişdim.

Artıq iş üzrə ədalətli qərar çıxarılacağına və pozulmuş hüquqlarımın bərpa ediləcəyinə heç bir inamım qalmamışdı. Buna baxmayaraq mübarizəni davam etdirmək və prosessual hüquqlardan istifadə etmək qərarına gəldim.

Nəhayət, apelyasiya məhkəməsinin qərarından kassasiya şikayəti verilməsi və hüquqlarımın müdafiəsi üçün "AAA" Vəkil Bürosunun direktoru vəkil Atakişi Abbas Musa oğluna müraciət etdim. Hörmətli vəkil dərin hüquqi bilikləri, təcrübəsi və yüksək mədəniyyəti ilə sanki öz problemini həll edirmişcəsinə diqqət və qayğı ilə işimizlə məşğul olmuş, yaşayış sahəsinin sökülməsi ilə əlaqədar çətin vəziyyətə düşməyimizi nəzərə alaraq təmənnasız şəkildə hüquqi məsləhətlər vermiş və kassasiya şikayətinin düzgün və əsaslı tərtib edilməsi, habelə ona baxılmasında vəkilin iştirakını təmin etməklə keyfiyyətli hüquqi yardım göstərmişdir. Bununla da, mühüm sübutların məhkəmə tərəfindən nəzərə alınmasına, işin hallarının düzgün qiymətləndirilməsinə və işin ədalətli araşdırılmasına nail ola bildik. Nəticədə, apelyasiya məhkəməsinin qanunsuz və ədalətsiz qərarı Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyası tərəfindən ləğv edildi.

Bir daha mülkiyyət hüququmun müdafiəsində əvəzolunmaz və mühüm roluna görə "AAA" Vəkil Bürosunun direktoru Atakişi Abbas Musa oğluna və onun peşəkar kollektivinə dərin minnətdarlığımı bildirir, uğurlarınızın davamını arzu edirəm!

**Hörmətlə,**
**Məhərrəmov Vüqar Abbas oğlu**
28 dekabr 2021-ci il

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3680
« 30 » 12 2021 il